## FEİLİN ŞƏKİLLƏRİ. XƏBƏR ŞƏKLİ

Danışanın münasibətindən asılı olaraq feilin ifadə etdiyi hərəkət əmr və ya arzu olunur, lazım və ya vacib sayılır, şərt kimi qoyulur, yaxud, sadəcə, xəbər verilir. Bunlara feilin şəkilləri deyilir. Feilin hər bir şəkli müəyyən qrammatik formaya malikdir:

| | | | |
|---|---|---|---|
| **Əmr şəkli** | Bunu bil. | **Vacib şəkli** | Bunu bilməlisən. |
| **Arzu şəkli** | Kaş bunu biləsən. | **Şərt şəkli** | Bunu bilsən. |
| **Lazım şəkli** | Bunu biləsisən. | **Xəbər şəkli** | Bunu bilirsən. |

Feilin şəkilləri müvafiq şəkilçi qəbul etdikdən sonra şəxsə görə dəyişir: *bax-sa-m, bax-malı-yam, bax-ası-san, bax-a-san.* Əmr şəklinin xüsusi şəkilçisi olmadığına görə yalnız şəxsə görə dəyişir: *bax, baxım, baxsın, baxın* və s. Xəbər şəklində olan feil isə həm zamana, həm də şəxsə görə dəyişir*: bax-dı-m, bax-ır-san, bax-acağ-ıq* və s.

***

II şəxsdə olan feillərə keçmiş zaman şəkilçisi *-mış*$^4$ artırıldıqda şəkilçinin son samiti (ş) düşə bilər: *qaç-mı(ş)-san, gəl-mi(ş)-siniz*. Keçmiş zaman (-ıb$^4$), gələcək zaman (-acaq$^2$) şəkilçisi qəbul etmiş feillər III şəxsin təkinə aid olanda çox zaman *-dır*$^4$ şəkilçisiz işlənir: *qaçıb(dır), gələcək(dir).*

***

İndiki və gələcək zaman şəkilçiləri qəbul etmiş feillərin sonundakı *a,ə* saitləri *ı, i, u, ü* kimi tələffüz olunur: *yaşayır [yaşıyır], yoxlayacaq* [*yoxluyacax], anlayar [annıyar].*

***

III şəxsin cəmində işləndikdə *-ır*$^4$ indiki zaman şəkilçisinin və *-ar*$^2$ gələcək zaman şəkilçisinin samiti [l] kimi tələffüz olunur: *qaçırlar [qaçıllar], baxarlar [baxallar].*

***

II şəxsin cəmində feillərin yazılışı ilə tələffüzü fərqlənir: *görürsünüz [görürsüz], qayıtdınız [qayıtdız], oxuyacaqsınız [oxuyacaxsız], gəlməzsiniz [gəlməzsiz].*

## FEİLİN ƏMR ŞƏKLİ

Feilin əmr şəklində hərəkətin icrası əmr (xahiş, tövsiyə və s.) olunur: *get, baxın, oxumasınlar*. Əmr şəklinin II şəxs təki heç bir şəkilçi qəbul etmir: *apar, sındır, dinlə* və s. Qalan şəxslərdə əmr şəkli şəxs şəkilçilərinin köməyi ilə düzəlir: *yaz- ım, yaz, yaz-sın, yaz-aq, yaz-ın, yaz-sınlar; işlə-yim, işlə, işlə-sin, işlə-yək, işlə-yin, işlə-sinlər.*

## FEİLİN ARZU ŞƏKLİ

Feilin arzu şəklində hərəkətin icrası arzu edilir. Arzu şəkli feilin kökünə və ya başlanğıc formasına *-a*$^2$ (*-ya*$^2$ ) şəkilçisini artırmaqla düzəlir: *gəl-ə, oxu-ya*. Bu zaman, adətən, feildən əvvəl *kaş, gərək, təki, barı* sözləri işlənir: *kaş gəl-ə, gərək bax-asan, təki gör-əm.*

## FEİLİN VACİB ŞƏKLİ

Feilin vacib şəkli hərəkətin icrasının vacibliyini bildirir. Vacib şəkli feilin kökünə və ya başlanğıc formasına *-malı*$^2$ şəkilçisini artırmaqla düzəlir: *sat-malı, gör-məli*. Vacib şəklinin inkarı həm *-ma*$^2$ inkar şəkilçisi, həm də *deyil* sözü vasitəsilə düzəlir. İkinci halda şəxs şəkilçisi *deyil* sözünə qoşulur: *bax-ma-malı-san, bax-malı deyil-sən*.

## FEİLİN LAZIM ŞƏKLİ

Feilin lazım şəkli hərəkətin icrasının lazım olduğunu bildirir və feilin kökünə və ya başlanğıc formasına *-ası*$^2$ şəkilçisi artırmaqla düzəlir: *gör-əsi, baxıl-ası.* Lazım şəklinin inkarı feilə *deyil* sözü artırmaqla düzəlir. Bu zaman şəxs şəkilçisi *deyil* sözünə artırılır: *gör-əsi deyil-əm, qal-ası deyil-siniz*.

## FEİLİN ŞƏRT ŞƏKLİ

Feilin şərt şəkli hərəkətin müəyyən şərt daxilində icra olunacağını bildirir, feilin kökünə və ya başlanğıc formasına *sa*$^2$ şəkilçisi artırmaqla düzəlir: *çalış-sa-m, dağıl-sa, gör-sə-k, bil-sə-niz* və s. Cümlədə şərt şəklində işlənmiş feildən sonra vergül qoyulmalıdır. Məsələn: *Hava yaxşı olsa, gəzməyə gedərik.*